# Yuxarı sinif şagirdlərinin peşə seçiminə hazırlığı məqsədilə keçirilən təlim metodları*

**Sofiya Qaponova[1], İrina Revina[2]**

**Müəlliflər:**

[1] Sofiya Qaponova — Psixologiya və Reabilitasiya Texnologiyaları kafedrasının professoru, psixologiya elmləri doktoru, Federal Reanimatologiya və Reabilitologiya Elmi Klinik Mərkəzi. Moskva, Rusiya.
E-mail: sagap@mail.ru

[2] İrina Revina — psixologiya elmləri namizədi, pedaqoq-psixoloq, MAOU «42 nömrəli tam orta məktəb». Nijniy Novqorod, Rusiya.
E-mail: reviar@mail.ru

**Açar sözlər:**
Yuxarı sinif şagirdlərinin peşə seçiminə hazırlığı, təlim, peşə seçimi motivasiyası.

**Annotasiya.** Öz maraqlarını və bu maraqlara istiqamətlənmiş meyil və qabiliyyətləri müstəqil şəkildə müəyyənləşdirmək yuxarı sinif şagirdləri üçün çətin və heç də həmişə əlçatan olmayan məsələdir. Bu səbəbdən məktəbdə peşə seçiminə hazırlıq prosesi çərçivəsində gənclərin seçdikləri sahəyə istiqamətləndirilməsi üçün psixoloqun məqsədyönlü köməyinə ehtiyac duyulur. Peşə seçimi məqsədi ilə yuxarı sinif şagirdləri üçün hazırladığımız psixoloji yardım proqramı özündə nəzəri, diaqnostik və təlim bloklarını birləşdirir. Məqalədə 9-cu sinifdə təhsil alan şagirdlərə ünvanlanmış peşə təlimi blokunun səmərəliliyinin yoxlanılması və nəticələrin qiymətləndirilməsindən bəhs edilir, təlim öncəsi və sonrası yuxarı sinif şagirdlərinə gələcək peşə seçimi üçün gərəkli olan motivlər müəyyənləşdirilir və nəticələrin müqayisəsi aparılır. Təlimin sonunda aparılan müqayisə işləri peşə seçimi zamanı hazırlıq səviyyəsinin əhəmiyyətli dərəcədə artdığını göstərir.

**Məqaləyə istinad:** Qaponova S., Revina İ. (2018) *Yuxarı sinif şagirdlərinin peşə seçiminə hazırlığı məqsədilə keçirilən təlim metodları.* «Azərbaycan məktəbi». № 4 (685), səh. 35–40.

* Məqalə rus dilindən tərcümə olunub. Mənbə: Гапонова С., Ревина И. (2018) *Тренинговая форма работы в рамках предпрофильной подготовки старшеклассников.* «Азербайджанская школа». № 4 (685), стр. 27–34.

## Giriş

Ali məktəbə qəbul olmaq üçün yuxarı sinif şagirdlərindən psixoloji hazırlığa malik olmaq və mükəmməl təhsilə yiyələnmək, həmçinin öz müqəddəratını təyin etmək bacarığı tələb edilir. Öz maraqlarını və bu maraqlara istiqamətlənmiş meyil və qabiliyyətlərini müstəqil şəkildə müəyyənləşdirmək yuxarı sinif şagirdləri üçün heç də həmişə əlçatan məsələ deyil. Bundan əlavə, müasir həyatın qeyri-sabitliyi, bu və ya digər peşənin perspektivinin qeyri-müəyyənliyi, ayrı-ayrı sahələrə mütəxəssis tələbatının fərqliliyi peşə seçən şagirdlərin narahatlığını artırır. Yuxarı sinif şagirdlərində həyat təcrübəsinin olmaması da onların gələcək peşə seçiminə mənfi təsir göstərir. Araşdırmalar göstərir ki, gənclər peşə seçimində ailə ənənələrini, iqtisadi maraqları, milli xüsusiyyətləri nəzərə alır, eyni zamanda, dəbdə olan peşələrə üstünlük verirlər (Селиванова Л.И., 2013, с. 498-514). Gələcək peşə seçiminə istiqamətlənmiş bu cür «təbii» yanaşma mövcud aktual vəziyyəti dar və məhdud çərçivəyə salır (Рогов Е. И., 1995, с. 529). Bu səbəbdən də gənclər universiteti bitirən zaman əmək bazarında rəqabətə hazır olmurlar. Seçdikləri peşə üzrə motivasiyaları demək olar ki, aşağı səviyyədə olur. Belə olan halda, gənclər digər alternativ məşğuliyyət sahələrində öz bacarıqlarını sınamaq qərarına gəlirlər. Halbuki onlar peşə seçimi zamanı özlərinə münasib fəaliyyət sahələrini seçsələr, daha yüksək peşəkar uğurlar əldə etmiş olardılar (Селиванова Л.И., 2013; Гапонова С.А, Зыкова А.В., 2015). Buna görə də peşə seçimi ərəfəsində olan şagirdlərə psixoloq köməyinə ehtiyac duyulur. Qeyd etmək lazımdır ki, bu, hazırda mövcud sahədə ən aktual məsələyə çevrilib.

Peşə seçiminə hazırlıq sistemi – pedaqoji, psixo-pedaqoji, informasiya və təşkilati fəaliyyətləri özündə birləşdirir. Bu sistemdə gələcək təhsilin əsas istiqamətləri, gənclərin seçdiyi peşə fəaliyyətinin genişliyi təşviq edilir (Горбачева Е.Ю., 2011, Пинский А.А., 2004 və b.).

Peşə seçimi hazırlığı xüsusiyyət baxımından məktəb psixoloqlarına yaxşı tanış olan ixtisasyönlü fəaliyyət sahəsidir. Fərq yalnız ondan ibarətdir ki, məktəbdə ixtisasyönlü işin əsas hissəsi olan peşəkar məlumatlandırma və məsləhətvermə yuxarı sinif şagirdlərindən məktəb daxilində peşə seçimini tələb etmir, onu qeyri-müəyyən müddətə təxirə salır. İxtisas istiqaməti üzrə təlim artıq məktəbdə şagirdləri seçdikləri peşəyə doğru istiqamətləndirir ki, bu da öz növbəsində onların qərarvermə prosesini sürətləndirir. Bir çox müəlliflərin fikrincə, hazırkı dövrdə gənclərin peşə hazırlığı prosesində ənənəvi şəkildə qurulmuş üsulların yenidən nəzərdən keçirilməsinə ciddi səbəblər vardır (Горбачева Е.Ю., 2011; Митина Л.М., 2002; Пинский А.А., 2004).

## Araşdırma proqramı

Hazırladığımız nəzəri, diaqnostik və təlim bloklarını özündə birləşdirən psixoloji yardım proqramı 8–10-cu sinif şagirdləri üçün nəzərdə tutulub. Bu proqramın əsas məqsədi 9-cu sinif şagirdlərinə ünvanlanmış təlim blokunun effektivliyini təhlil edərək qiymətləndirməkdir. Təlim zamanı məhz bu yaş qrupunun seçilməsində məqsəd şagirdlərin maraq, meyil və qabiliyyətlərini erkən vaxtda müəyyənləşdirməklə yanaşı, onların gələcək ixtisas seçimi istiqamətlərinə psixoloji dəstək verməkdir. Bu vəziyyət ümumilikdə dərs prosesinin yüksək səviyyədə təşkil olunması üçün şagirdlərdə müsbət motivasiya yaratması ilə izah olunur.

Təklif etdiyimiz variant A.P.Çernyavskayanın (2004) peşəkar yetkinliyi formalaşdırma proqramı və məktəb psixoloji mərkəzinin məlumatları əsasında hazırlanmışdır. İşin ümumi məqsədi ixtisas seçərkən şagirdin öz «Mən» obrazını tapmaq, seçilən ixtisas üzrə hazırlıq dərəcəsini müəyyənləşdirmək və bu hazırlıqların formalaşdırılmasına dair bacarıqlar əldə etməkdir.

A.P.Çernyavskaya peşəkar yetkinliyin 5 əsas parametrini müəyyən edir:

1. Sərbəstlik;

2. Peşə aləmi haqqında məlumatlılıq və bu məlumatları peşənin xüsusiyyətləri ilə əlaqələndirmək bacarığı;

3. Qərar qəbuletmə bacarığı;

4. Peşəkar həyatını planlaşdırmaq bacarığı;

5. Qərarvermə vəziyyətinə emosional yanaşma.

Qeyd edilən peşəkar parametrlərin formalaşması və inkişafı bütün insanlarda eyni vaxtda yaranmasa da, o, insan həyatının müxtəlif mərhələlərində və fərqli şəkildə özünü büruzə verir.

***Sərbəstlik.*** Gənclərdə sərbəstliyin formalaşması, adətən, erkən yaşlarında yaranır, yetkinlik yaşına çatanda yekunlaşır. Təlim qrupundakı məşğələlər yeni düşüncə tərzinin yaranmasına başlanğıc verərək, gənclərin yeniyetməlik mərhələsində müstəqil inkişafı üçün şərait yaradır. Məxsusi olaraq təlimdə insan öz düşüncə və hərəkətləri barədə dolğun rəy almaq imkanı əldə edir. Qrup işinə daxil olarkən, şagirdlərdə özünəinam və özünü inkişaf etdirmək istəyi formalaşır. Bununla yanaşı, müzakirə və tədqiqat üçün xüsusi seçilmiş mövzular real və ideal «Mən»in formalaşmasına və onlar arasında əlaqələrin qurulmasına kömək edir. Qrup işi şagirdləri istənilən situasiyalarda ünsiyyət qurmağa, fikrini tam, sərbəst şəkildə ifadə etməyə istiqamətləndirir. Buna görə də, yeniyetmə, hətta tam passivlik vəziyyətində olsa belə, qrup işində hər şeyi çox rahat şəkildə anlayır və öyrənə bilir.

***Peşə aləmi haqqında məlumatlılıq və bu məlumatları peşənin xüsusiyyətləri ilə əlaqələndirmək bacarığı.*** Təlim məşğələlərinin bir hissəsi mənbələrin və qəbul edilən informasiyaların təhlilinə, onların axtarışı üzrə bacarıqların inkişaf etdirilməsinə həsr olunur. Məşğələlər elə bir formada qurulur ki, bu məşğələyə daxil olan hər bir qrup iştirakçısı burada hansı məlumatın çatışmadığını və məlumatı hansı mənbələrdən əldə edə biləcəyini anlayır. Qrup iştirakçıları məşğələlərdə dəyərlər, qabiliyyətlər, şəxsi xüsusiyyətlər və ünsiyyət yaratmaq haqqında biliklərə yiyələnir, zəruri məlumatlar, bacarıqlar əldə edirlər. Bu məlumatlar şagirdlərə peşə seçimində çox böyük kömək edir.

***Qərar qəbuletmə bacarığı.*** Qərar qəbuletmə bacarığının inkişafı 2 istiqamətdə olur:

1. Vəziyyəti tələb olunan qərarın qəbulu kimi görmək bacarığı;

2. Tanınmış alqoritmi istifadə etmək bacarığı.

***Peşəkar həyatını planlaşdırmaq bacarığı.*** Məşğələ proqramı elə formada təşkil olunur ki, qrup üzvləri gələcək həyatının tam təsviri barədə düşünsünlər. Onlar məşğələ zamanı həyat və ixtisasyönlü məsələlərə diqqət ayıraraq, gələcəkdə təhsil alacaqları istiqaməti müəyyənləşdirirlər (universitetə daxil olmaq üçün hazırlıq kurslarını, iş yerini və s.).

***Qərarvermə vəziyyətinə emosional yanaşma.*** Əgər bir şəxs hər hansı qərarı qəbul etməkdə çox maraqlı və israrlıdırsa, onda bu, böyük effektlə həyata keçəcək. Fərdi inkişaf səviyyəsi göstəricilərinin şəxsin bilik və bacarıqlarına (psixoloji də daxil olmaqla) uyğunluğu emosional yanaşmada əsas şərtdir.

Təlimin nəticələri təhsilalanların subyektiv qiymətləndirilməsinə, eyni zamanda 9-cu sinif şagirdləri ilə təlimdən əvvəl və sonra aşağıdakı suallar əsasında aparılan anket sorğusuna əsaslanır:

– Gələcək peşə seçiminə qərar verdinizmi (təxmini olsa da)?

– Qərar verməmisinizsə, bunun səbəbi nədir (seçim üçün nə çatışmır)?

– Qərar verdinizsə, o zaman seçdiyiniz peşəni qeyd edin;

– Seçiminizin bütün səbəblərini əsaslandırın.

Bu eksperimentdə Nijniy Novqorod şəhərinin 42 və 186 nömrəli tam orta məktəblərinin 120 şagirdi iştirak edib. Əldə edilən nəticələr təhlil metodu və seçmə mo-tivlərinin quruluşu baxımından, məlumatlılıq əlamətləri ilə əlaqələndirilərək təhlil olunub.

## Tədqiqatın nəticələri

Peşəkar səviyyədə öz müqəddəratını təyin etmək üçün ən əsas amil dəqiqlik və seçimin

Diaqram 1.
**Gələcək peşə seçimi haqqında qərar qəbul etmiş iştirakçıların faiz nisbəti**




Diaqram 2.
**Polimotivasiya üzrə seçilən peşələrin dinamik göstəriciləri (nisbi vahidlərlə)**




Diaqram 3. **Şagirdlərin peşə seçimi zamanı daxili və xarici motivlərin nisbət dinamikası**




peşəkar şəkildə istiqamətləndirilməsidir. Dəqiqlik seçilmiş peşənin konkret müəyyənləşməsi mənasında başa düşülür. Hər hansı bir peşəni seçmək üçün seçim səbəblərinin sayı daha çox olarsa, o zaman bu, həqiqətən də tam düşünülmüş seçim hesab oluna bilər. Bu cür istiqamətlənmə gənclərin seçdiyi peşə üzrə fəaliyyətinin insanlara faydalar verəcəyini, öz bacarıq və qabiliyyətlərini inkişaf etdirəcəyini və gənclərin özünü bu peşəyə uyğun işdə tapa biləcəyini aydın şəkildə göstərir. Əks halda, gənclərin sahib olduğu peşə onların maddi və mənəvi ehtiyaclarını ödəmək gücündə olmayan bir vasitə kimi qalacaqdır. Birinci halda, biz peşəyə uyğun olan peşəkar tələblər, ikinci halda isə qeyri-peşəkar tələblər haqqında danışırıq. Peşə seçimi üzrə aparılan tədqiqat işinin nəticəsinin dinamikası *Diaqram 1*-də göstərilmişdir.

Təqdim olunan diaqram hazırda gələcək peşə seçiminə qərar verən iştirakçıların sayında əhəmiyyətli bir artım olduğunu göstərməklə, bu fərqin statistik cəhətdən etibarlı olduğunu bildirir ($r \leq 0,01$). Sözsüz ki, diaqram məsələnin həll olunduğu anlamına gəlmir və bu o demək deyil ki, bütün 9-cu sinif şagirdləri artıq öz gələcək ixtisas isiqamətlərini müəyyənləşdiriblər. Bu seçim bir neçə dəfə dəyişə də bilər. Seçimin əvvəlcədən müəyyən olunması onun təsdiqi üçün faktik fəaliyyətə yönəlməklə, şagirdlərin bütün güc və bacarıqlarını işə salır, onlarda motivasiya yaradır. Nəticədə, şagirdlər seçimlərinin doğru və ya yanlışlığına əmin olurlar. Məhz bu üsulla təlim məşğələləri

Diaqram 4. **Peşə seçimi üzrə motivasiya strukturunun dinamikası**




nəticəsində sagirdlərin peşə seçiminin müəyyənliyi artır.

Seçimin polimotivasiyası motiv saylarının peşəkar seçimlərin sayına nisbəti kimi müəyyən olunub. *Diaqram 2*-də ixtisas seçimi üzrə göstəricilərin əhəmiyyətli dərəcədə artdığı müşahidə edilir (r ≤ 0,05) və seçimi gücləndirən səbəblərin sayının çoxluğu göstərilir.

Peşəkar istiqamətlənmə peşə seçiminin ən əsas xüsusiyyəti olduğundan, bu istiqamətlənmə aparılan tədqiqat işində peşə seçimi üzrə sərbəst təsviri motivləri seçməklə, kontent – analiz metodu ilə qiymətləndirilir. Sonra bu motivlər keyfiyyət xüsusiyyətlərinə (daxili və xarici motivlərə) və motivasiya quruluşuna görə qruplaşdırılır. Nəticələrin təhlili diaqram 3-də təsvir edilib.

*Diaqram 3*-dən göründüyü kimi, təlimdən sonra peşə seçmək üçün daxili motivlərin payı əhəmiyyətli dərəcədə artmışdır (r ≤ 0,05). Bu fakt, eyni zamanda 9-cu sinif şagirdlərinin şüurunda peşə seçimini müsbət dinamikaya gətirib çıxarmasının göstəricisidir.

Şəxsiyyətin öz müqəddəratını təyin etməsinin hərəkətverici qüvvəsi «istəyirəm» – «bacarıram» – «var» – «sən borclusan» sözləri ilə «mən borcluyam» və «başqa cür bacara bilmərəm» anlayışları arasında ziddiyyət təşkil edir (Гапонова С.А., Ревина И.А., 2009). «İstəyirəm» – ixtisas seçimi zamanı insana istiqamət verən motiv və məqsədlərdir. «Bacarıram» və «var» – peşəkar plan və məqsədlərə nail olmaq üçün imkanlar, meyillər və şəxsi xüsusiyyətlər hesab olunur. «Lazımdır» – uyğun ixtisas növünə əmək bazarında tələbatın olduğunu bildirir. «Başqa cür bacara bilmərəm» – arzu və şəxsi keyfiyyətləri cəmiyyətin tələbləri ilə əlaqələndirərək, sosial dəyərlərin mənimsənilməsi anlamına gəlir. Psixoloji planda və peşəkar səviyyədə özünü təsdiq edən şəxsiyyət seçdiyi ixtisasın ona nə üçün lazımlı olduğunu bilir. Bu şəxsiyyət cəmiyyətin nə istədiyini bilən, özünün «var» olduğunu anlayan, kollektivin ondan nə gözlədiyini və nə istədiyini dərk edən bir üzvünə deyilir. Buna görə də, «istəyirəm» – «bacarıram» – «lazımdır» – «başqa cür bacara bilmərəm» sözləri arasındakı ziddiyyətlər şəxsiyyətin öz peşəkar müqəddəratını təyin edən göstəricilərdir. Bu göstəricilərə əsasən ixtisas seçimi zamanı təhlil olunan nəticələr *Diaqram 4*-də təsvir edilmişdir.

Diaqramdan aydın olur ki, peşə seçimi üzrə motivasiyanın strukturundakı dəyişikliklər əvvəlki göstəricilərdəki kimi əhəmiyyətli olmasa da, biz burada təlim nəticələrinə əsasən bəzi müsbət dinamik göstəricilər qeyd edə bilərik.

## Nəticə

1. Təlim nəticələrinin effektiv təhlili gələcək peşə seçimi zamanı şagirdlərə psixoloji hazırlıq prosesinin perspektivli olduğunu göstərir. Psixoloji hazırlıq prosesi çərçivəsində qazanılan keyfiyyətlər gənclərin peşə seçimi üzrə öz müqəddəratını aktiv və düzgün şəkildə təyin etmək bacarıqlarını formalaşdırır. Bu zaman gənclər ixtisas istiqaməti üzrə bütün bacarıqlarını düzgün şəkildə inkişaf etdirmək, öz hislərini dərk etmək, ətrafdan aldığı məlumatı düzgün formada anlamaq və s. bu kimi keyfiyyətlərə malik olurlar.

2. 9-cu sinif şagirdlərinin təlimdən öncə və sonrakı nəticələri aparılan tədqiqat işinə təsir göstərir, seçim üçün hazırlıq səviyyəsinin artırılması, dəqiqlik və etibarlılığı aşağıdakılarda öz ifadəsini tapır:

- seçimin dəqiqliyinin artımı;
- polimotivasiyanın artımı;
- daxili və xarici motivlərin nisbət dəyişikliyi zamanı daxili motivlərin artımı; bu da öz növbəsində seçilən ixtisasın peşəkar tələblərini ifadə edir.
- ziddiyyətli dəyişkən ifadələr: «istəyirəm» – «bacarıram» – «var» – «lazımdır» – «başqa cür bacarmaram» insanın istəyini, onun var olduğunu, nə bacardığını, kollektivin və cəmiyyətin ondan nə istədiyini bildirir. Bu xüsusiyyətlərə malik subyekt ictimaiyyətlə əlaqələr sistemində fəaliyyət göstərməyə hazır olan şəxs hesab olunur.

3. 9-cu sinif şagirdləri üçün peşə hazırlığı proqramına təlimin daxil edilməsi onların peşəkar yetkinliyinin formalaşdırılması prosesinin sürətləndirilməsinə xidmət edir.